# Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin yeni redaksiyası barədə Qərar*

Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurası **qərara aldı:**

1. MDB iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin yeni redaksiyası (əlavə olunur) təsdiq edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir. Qanunvericiliyi zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün bu Qərar göstərilən prosedurların yerinə yetirilməsi haqqında bildirişin depozitariyə saxlanmağa verildiyi tarixdən qüvvəyə minir.

3. Birliyin iştirakçı dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 1993-cü il 23 dekabr tarixli Qərarının və «Birliyin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnaməyə dəyişikliklər və əlavələr haqqında» İqtisadi İttifaqın Dövlətlərarası İqtisadi Komitəsinin Rəyasət Heyətinin 1996-cı il 26 iyul tarixli Qərarı qüvvədən düşmüş hesab edilsin.

2002-ci il 30 may tarixində Moskva şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə, bu Qərarı imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərəcək Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

***Azərbaycan Respublikası Hökuməti adından***
***A. RASİ-ZADƏ***

***Ermənistan Respublikası Hökuməti adından***
***A. MARQARYAN***

***Belarus Respublikası Hökuməti adından***
***Q. NAVİTSKİ***

***Gürcüstan Hökuməti adından***
***A. DJORBENADZE***

***Qazaxıstan Respublikası Hökuməti adından***
***İ. TASMAQAMBETOV***

***Qırğız Respublikası Hökuməti adından***
***K. NANAYEV***

***Moldova Respublikası Hökuməti adından***
***V. TARLEV***

***Rusiya Federasiyası Hökuməti adından***
***M. KASYANOV***

***Tacikistan Respublikası Hökuməti adından***
***A. AKİLOV***

***Özbəkistan Respublikası Hökuməti adından***
***U. SULTANOV***

***Ukrayna Hökuməti adından***
***A. KİNAX***

* *Qərar Azərbaycan Respublikası tərəfindən aşağıdakı xüsusi qeyd-şərtlə imzalanmışdır: «Əsasnamənin 2-ci bölməsinin əsas istiqamətlər hissəsinin üçüncü abzasında «əlaqələndirilməsi» sözü və həmin bölmənin əsas funksiyalar hissəsinin dördüncü abzasında «gömrük qaydaları» ifadəsi istisna olmaqla».*

*Qərar Türkmənistan tərəfindən imzalanmayıb.*

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 may 2009-cu il, № 5 (143), maddə 297) («VneshExpertService» LLC).***

***Azərbaycan Respublikasının 14 aprel 2009-cu il tarixli, 789-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir («VneshExpertService» LLC).***

---

*Müstəqil Dövlətlər Birliyi*
*Hökumət Başçıları Şurasının*
*2002-ci il 30 may tarixli qərarı ilə*
***təsdiq edilmişdir***

# Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında

# Əsasnamə

## 1. Ümumi müddəalar

1.1. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası — GXRŞ (bundan sonra — Şura) Müstəqil Dövlətlər Birliyinin (bundan sonra — MDB) müəyyən sahələrdə əməkdaşlıq üzrə daimi fəaliyyət göstərən orqanıdır və gömrük siyasəti sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsinin təmin edilməsi üçün yaradılmışdır.

1.2. Öz fəaliyyətində Şura Müstəqil Dövlətlər Birliyinin əsas hesab edilən sənədlərini, Birlik çərçivəsində iştirakçı dövlətlər arasında bağlanmış müqavilə və sazişləri, Dövlət Başçıları Şurasının və Hökumət Başçıları Şurasının, İqtisadi Şuranın və Xarici İşlər Nazirləri Şurasının qərarlarını, həmçinin bu Əsasnaməni rəhbər tutaraq, öz fəaliyyətini Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsi ilə sıx qarşılıqlı fəaliyyətdə həyata keçirir.

## 2. Şuranın əsas fəaliyyət istiqamətləri və funksiyaları

2.1. Şuranın əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Birliyin iştirakçısı olan dövlətlərin gömrük işi sahəsində prioritet istiqamətlərinin müəyyən edilməsi;
- Birliyin iştirakçısı olan dövlətlərin gömrük qanunvericiliklərinin yaxınlaşdırılmasına və harmonikləşdirilməsinə yardım edilməsi;
- MDB-nin iştirakçısı olan dövlətlərin gömrük və digər maraqlı milli xidmətlərinin və müəssisələrinin gömrük siyasətinin əsas aspektləri üzrə fəaliyyətinin təcrübi olaraq əlaqələndirilməsi;
- MDB-nin iştirakçısı olan dövlətlərin gömrük işi sahəsində qəbul edilmiş dövlətlərarası və hökumətlərarası qərarlarının həyata keçirilməsinə yardım edilməsi.

2.2. Şuranın əsas funksiyaları:

- MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinin birgə fəaliyyətinin prioritet istiqamətləri üzrə məqsədli proqramların hazırlanması;
- Birliyin iştirakçısı olan dövlətlərin gömrük qanunvericiliklərinin yaxınlaşdırılması və harmonikləşdirilməsi üzrə təkliflərin hazırlanması;
- qarşılıqlı məqbul hesab edilən tarif və qeyri-tarif tənzimlənməsi mexanizmlərinin yaradılması üzrə təkliflərin hazırlanması;
- xarici ticarət sahəsində işlədilən, gömrük rəsmiləşdirməsi sənədlərinin və mallara nəzarətin gömrük qaydaları və formalarının unifikasiyası üzrə tövsiyələrin hazırlanması;
- Şuranın səlahiyyətlərinə daxil olan məsələlər üzrə Müstəqil Dövlətlər Birliyinin dövlət, müəyyən sahələrə aid orqanları və təşkilatları ilə qarşılıqlı fəaliyyətin həyata keçirilməsi;
- Birliyin iştirakçısı olan dövlətlər tərəfindən qəbul edilmiş gömrük işi sahəsində sənədlərin həyata keçirilməsinin gedişatının Şuranın iclaslarında təhlili və baxılması;
- Şuranın qərarlarına uyğun olaraq Birliyin iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinin öz üzərinə götürdükləri öhdəliklərin həyata keçirilməsinin gedişatına baxılması;
- Şuranın səlahiyyətlərinə daxil olan digər məsələlərə baxılması.

## *3. Şuranın hüquq və vəzifələri*

3.1. Şuranın:

- müəyyən edilmiş qaydada, MDB Dövlət Başçıları Şurasına, Hökumət Başçıları Şurasına və İqtisadi Şuraya baxılması üçün təkliflər vermək;
- öz səlahiyyətləri çərçivəsində, MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinin əməkdaşlığının inkişafına, qarşılıqlı fəaliyyətinə istiqamətlənmiş qərarlar qəbul etmək;
- müəyyən edilmiş qaydada, gömrük işi sahəsində məsələlərin hazırlanması üçün zəruri olan daimi və ya müvəqqəti işçi qrupları yaratmaq;
- müəyyən edilmiş qaydada, ayrı-ayrı işlərin həyata keçirilməsi üçün alim və mütəxəssisləri cəlb etmək;
- onun səlahiyyətlərinə daxil olan digər məsələləri həll etmək hüququ vardır.

3.2. Şura üzvünün:

- Şuranın səlahiyyətləri daxilində istənilən məsələləri müzakirəyə çıxarmaq və baxılan məsələlər və Şura tərəfindən qəbul edilmiş qərarların yerinə yetirilməsi haqqında zəruri məlumat almaq;
- Şuranın iclaslarının keçirilmə yeri və zamanı haqqında təkliflər təqdim etmək;
- Şuranın işçi qruplarının fəaliyyəti haqqında zəruri məlumatı almaq hüququ vardır.

3.3. Şura üzvünün vəzifəsi:

- gömrük əməkdaşlığı üzrə baxılan məsələlər barədə öz dövlətinin mövqeyi haqqında Şuranı məlumatlandırmaq;
- MDB-nin iştirakçısı olan dövlətin müvafiq orqanlarına Şura tərəfindən qəbul edilmiş qərarları çatdırmaq və onların yerinə yetirilməsinə kömək etmək;
- qəbul edilmiş qərarların tam və vaxtında yerinə yetirilməsinə nəzarəti həyata keçirmək.

## *4. Şuranın fəaliyyətinin təşkili*

4.1. Şuranın üzvləri MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidməti rəhbərləridir. Hər bir dövlətin Şurada bir səsi vardır. Hər bir gömrük xidmətinin rəhbəri, Şuranın iclasında qərar qəbul etməyə müvafiq səlahiyyət verilmiş öz nümayəndəsini təyin etmək hüququna malikdir. Məşvərətçi səs hüququ ilə Şuranın tərkibinə MDB İcraiyyə Komitəsinin nümayəndəsi daxildir.

4.2. Şuraya, rotasiya prinsipi əsasında Şura üzvlərinin sırasından səs çoxluğu ilə bir il müddətinə seçilən Sədr rəhbərlik edir, lakin MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidməti rəhbərləri tərəfindən onun təkrar seçilməsi barədə müəyyən edilmiş qaydada qərar qəbul edildikdə növbəti müddətlərə yenidən seçilə bilər.

4.3. Şuranın Sədri:

- Şura aparatının fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir və üzərinə qoyulmuş məsələlərin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır;
- Şuranın iclaslarını aparır;
- Şura adından sənədləri imzalayır və Birliyin iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinə göndərir;
- müəyyən edilmiş qaydada Müstəqil Dövlətlər Birliyinin orqanlarında, həmçinin MDB-nin iştirakçısı olan dövlətlərin dövlət hakimiyyəti orqanlarında Şura aparatını təmsil edir;
- öz səlahiyyətləri çərçivəsində onların işçi (icraçı) orqanları səviyyəsində digər təşkilatlarla əlaqə saxlayır və inkişaf etdirir;
- Birliyin iştirakçısı olan dövlətlərin gömrük xidmətləri arasında qarşılıqlı fəaliyyətin təmin edilməsinə kömək edir;
- öz səlahiyyətləri çərçivəsində, Şura aparatının fəaliyyət məsələləri üzrə əmrlər, sərəncamlar, təlimatlar, əsasnamələr və digər aktlar verir, Şura aparatının əməkdaşlarının icra etməsi üçün vacib olan göstərişlər verir;
- Şuranın fəaliyyətinin təmin edilməsi ilə bağlı digər fəaliyyətləri həyata keçirir.

4.4. Şura öz işinin reqlamentini təsdiq edir.

4.5. Şuranın iclasları, zərurət yarandıqda, lakin hər rübdə bir dəfədən az olmayaraq keçirilir.

4.6. Birliyin iştirakçısı olan dövlətlərin gömrük xidmətləri Şuranın iclasında baxılması üçün təkliflər hazırlayırlar.

Təkliflər sənədlərin ilkin layihəsi və ya onların konsepsiyası formasında təqdim edilir.

Konkret məsələnin gündəlik layihəsinə daxil edilməsi barədə son qərarı Şura qəbul edir.

4.7. Şura üzvlərinin və ya onların səlahiyyətli nümayəndələrinin yarısından az olmayan iştirakçı olduqda, Şuranın iclasları hüquqi səlahiyyətli olur.

4.8. Qərarların qəbul edilmə qaydası.

Şura öz səlahiyyətləri çərçivəsində təyin edilmiş səs çoxluğu ilə (səsvermədə iştirak edənlərin s say hesabı ilə) qərarları qəbul edir, prosedur xarakterli qərarlar isə sadə səs çoxluğu ilə qəbul edilir.

MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidmətləri, zərurət yarandıqda, öz səlahiyyətləri çərçivəsində, Şura tərəfindən qəbul edilmiş qərarların həyata keçirilməsini təmin edən müvafiq aktlar qəbul edirlər.

Qəbul edilmiş qərarla razılaşmayan Şura üzvləri xüsusi rəy verə bilər, yaxud bu və ya digər məsələnin öz dövlətinin gömrük xidmətinin marağında olmadığını elan edə bilərlər. Bu, qərarın qəbul edilməsinə maneə hesab edilməməlidir.

4.9. Şuranın qərarı əsasında onun işində digər maraqlı dövlətlərin nümayəndələri müşahidəçi qismində iştirak edə bilərlər. Şuranın iclaslarına MDB-nin iştirakçısı olan dövlətlərin maraqlı nazirlik və müəssisələrinin mütəxəssisləri və ekspertləri dəvət oluna bilərlər.

## *5. Şuranın işçi aparatı və onun funksiyaları*

5.1. Şuranın işçi aparatı Şura Katibliyidir.

Şura Katibliyinin funksiyalarını nümayəndəsi Şuranın Sədri olan dövlətin gömrük xidməti MDB-nin İcraiyyə Komitəsi ilə qarşılıqlı fəaliyyətdə yerinə yetirir.

5.2. Şura Katibliyi:

- bu Əsasnamədə nəzərdə tutulmuş qaydada Şura iclaslarının keçirilməsini təşkil və təmin edir. MDB-nin iştirakçısı olan dövlətlərdə səyyar iclasların keçirilməsi zamanı göstərilən işi qəbul edən dövlətlərin gömrük xidmətləri ilə birgə keçirir;
- Şura iclaslarında baxılması üçün daxil olmuş materialları hazırlayır;
- müəyyən edilmiş qaydada, MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinə ilkin gündəliyi və Şuranın qarşıdakı iclaslarında baxılması üçün daxil edilən sənədlərin layihələrini göndərir;
- Şura çərçivəsində qəbul edilmiş qərarların MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinə vaxtında göndərilməsini təmin edir;
- Şuranın iclaslarında baxılan sənədlərin layihələrinin hazırlanması məsələləri üzrə Şura qərarlarına müvafiq olaraq ekspertlərin iclaslarını təşkil edir;
- Şuranın ekspert qruplarının iclaslarının protokollarını hazırlayır;
- Şura iclasının və bundan əvvəl keçiriləcək, növbəti Şura iclasının gündəliyinə daxil edilmiş məsələlərin müzakirə edilməsi üzrə ekspertlərin iclasının iştirakçılarının vaxtında müəyyən edilməsi sahəsində MDB-nin iştirakçısı olan dövlətlərin gömrük xidmətləri ilə qarşılıqlı fəaliyyət göstərir;
- Birliyin iştirakçısı olan dövlətlərin gömrük xidmətləri ilə birgə, Şura tərəfindən qəbul edilmiş qərarların yerinə yetirilməsi üzrə nəzarəti həyata keçirir, nəticələr barədə Sədri və Şura üzvlərini məlumatlandırır;
- öz səlahiyyətləri daxilində MDB əməkdaşlığının müəyyən sahələri üzrə MDB-nin digər orqanları ilə, həmçinin Şura iclasları zamanı müzakirə edilmiş və baxılmaq üçün təqdim edilən sənəd layihələrinin razılaşdırılması və hazırlanması sahəsində MDB İcraiyyə Komitəsinin müvafiq bölməsi ilə qarşılıqlı fəaliyyət göstərir.

5.3. Şuranın Katibi Şura Sədri tərəfindən Şura üzvləri ilə razılaşdırılmaqla bir il müddətinə təyin edilir.

Şuranın Katibi:

- Şura Katibliyinin fəaliyyətinə rəhbərlik edir;

- İclaslararası dövrdə Şuranın işini təşkil edir;
- MDB İcraiyyə Komitəsi ilə qarşılıqlı fəaliyyət göstərərək Şuranın fəaliyyətinin təşkilati və məlumat təminatını həyata keçirir.

## *6. Maliyyələşmə*

Şuranın iclaslarının, həmçinin onun fəaliyyətinin istiqamətləri üzrə müvəqqəti və daimi işçi qruplarının maliyyələşməsi MDB-nin iştirakçısı olan qəbul edən dövlətin gömrük xidmətinin vəsaiti hesabına həyata keçirilir.

Şura üzvlərinin və ekspertlərin ezam edilməsi üzrə xərcləri göndərən müvafiq dövlətin gömrük xidməti ödəyir.

Qəbul edilmiş qərarlara müvafiq olaraq həyata keçirilən bütün növ iş və birgə proqramlar MDB-nin iştirakçısı olan əlaqədar dövlətlərin gömrük xidmətlərinin vəsaitləri hesabına maliyyələşdirilir.

## *7. Yekun müddəalar*

Şura öz fəaliyyətini Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının qərarına əsasən dayandırır.

Bu Əsasnaməyə Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının müvafiq qərarı ilə dəyişikliklər və əlavələr edilə bilər.

---

*© VneshExpertService LLC*